# Tarixin sınağından keçən strateji tərəfdaşlıq



Azərbaycan müstəqilliyini bərpa edəndən sonra onu ilk dəstəkləyən dövlətlərdən biri Pakistan olub. Pakistanın ölkəmizə verdiyi dəstək ədalət və haqq uğrunda mübarizəmizdə də özünü göstərib. Azərbaycan torpaqları 30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olarkən Pakistan birmənalı şəkildə rəsmi Bakının haqlı mövqeyini müdafiə edib. Rəsmi İslamabad Ermənistanı bir dövlət kimi tanımayıb, Qarabağ məsələsində Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyib, beynəlxalq platformalarda sözünü deyib və siyasi, diplomatik dəstəyini əsirgəməyib. Bu qarşılıqlı həmrəylik və strateji tərəfdaşlıq Azərbaycanı və Pakistanı siyasi, diplomatik müstəvidə, iqtisadi, hərbi və mədəni sahələrdə bir-birinə daha da yaxınlaşdırır. Hər iki dövlət bir-birinə dost və qardaş ölkə kimi yanaşaraq gələcəkdə də birlikdə daha böyük uğurlara imza atmaq niyyətindədir. Pakistanın Baş naziri Şahbaz Şərif 2022-ci ildə Səmərqənddə səsləndirdiyi fikirlərlə bir daha İslamabadın prinsipial mövqeyini ifadə etmişdi: "Biz Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik".

Qarşılıqlı həmrəyliyin davamı olaraq fevralın 24-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Bakıya rəsmi səfər edib. Bu səfər iki ölkə arasındakı münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu və qarşılıqlı əməkdaşlığın daha da gücləndiyini nümayiş etdirir. Ötən gün Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakı ilə bir sıra mühüm sənədlərin imzalanması və mübadiləsi mərasimi keçirilib. Bu razılaşmalar diplomatik münasibətlərin möhkəmləndirilməsi, iqtisadi, ticari və strateji sahələrdə yeni imkanların yaradılması baxımından böyük əhəmiyyət kəsb edir. Fevralın 24-də Bakıda keçirilən biznes-forum məhz bu istiqamətdə mühüm addım oldu. Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif forumda çıxış edərək ikitərəfli əməkdaşlığın genişlənməsi və inkişafı məsələlərinin əhəmiyyətini vurğuladılar. Azərbaycan lideri çıxışı zamanı diqqətə çatdırdı ki, bəzən iki ölkə arasında biznes əlaqələrinin inkişafına mane olan əsas amil mövcud imkanlar və infrastruktur layihələri barədə məlumat çatışmazlığıdır. Ölkə başçısının sözlərinə görə, məhz belə platformalar bu boşluğu doldurmaq üçün vacibdir: "Çünki biznes-forum çərçivəsində müxtəlif təqdimatlar keçirilir, biznes imkanları təqdim edilir, hüquqi formatlar, vergi və gömrüklə bağlı məsələlər müzakirə olunur". Qarşılıqlı əlaqələrin genişlənməsi üçün əsas istiqamətlər artıq müəyyənləşib və tərəflər bu strateji kursa sadiqdirlər. Bunlara Azərbaycan və Pakistan şirkətləri arasında fəal iqtisadi əlaqələrin və ticarət dövriyyəsinin artması, iki ölkənin qardaşlıq münasibətlərinin biznes dairələri üçün dayanıqlı və etibarlı platforma yaratması, siyasi həmrəyliyin qarşılıqlı sərmayə qoyuluşunda da öz əksini tapması, hər iki dövlətin iqtisadiyyatına ümumilikdə 2 milyard ABŞ dolları həcmində sərmayə yatırılması strategiyası, enerji sektorunda əməkdaşlığın genişləndirilməsi və yeni layihələrin həyata keçirilməsi daxildir. Eyni zamanda Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə ticarət və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi, birgə istehsal müəssisələrinin yaradılması və sənaye əməkdaşlığının gücləndirilməsi, işgüzar əlaqələrin siyasi münasibətlər səviyyəsinə uyğun şəkildə inkişaf etdirilməsi hədəflər sırasındadır.

Qeyd edək ki, ötən il iyulun 11-də Prezident İlham Əliyevin Pakistan İslam Respublikasına rəsmi səfəri zamanı da mühüm əməkdaşlıq sənədləri imzalanmışdı. Həmin sənədlər arasında xarici işlər nazirlikləri arasında konsulluq sahəsində əməkdaşlıq haqqında tranzit ticarət sazişi, özəlləşdirmə sahəsində anlaşma, mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumları, 2024-2029-cu illər üzrə mədəni mübadilə proqramı və digər strateji istiqamətlər üzrə razılaşmalar yer alırdı. Azərbaycan və Pakistan bir-birinə iqtisadi baxımdan mühüm tərəfdaş olması, bu münasibətlərin gələcəkdə daha da dərinləşəcəyini göstərir. Qarşılıqlı sərmayələr, yeni biznes imkanları və strateji layihələr bu iki ölkəni təkcə dost və qardaş deyil, həm də iqtisadi müttəfiqə çevirir. Rəsmi Bakı və İslamabad hər sahədə inkişaf strategiyasını uyğunlaşdıraraq, güclü və dayanıqlı əməkdaşlıq modelini formalaşdırmağa davam edir.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan və Pakistan münasibətləri hər zaman möhkəm dostluq və qarşılıqlı dəstəyə əsaslansa da, bu tandem iqtisadi əlaqələrə eyni gücdə sirayət etməyib. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də bu reallığı açıq şəkildə etiraf edərək bildirib ki, bu gün ticarətimiz cəmi 14 milyon dollara bərabərdir və bu, qətiyyən bizim siyasi səviyyədə olan münasibətlərimizi əks etdirmir. Ciddi fərqi aradan qaldırmaq üçün hər iki ölkə artıq konkret addımlar atmağa başlayıb. Baş nazir bildirib ki, sərmayələrin həcmi yaxın müddətdə 2 milyard dollara çatdırılacaq. Məsələn, Pakistandan idxal olunan məşhur "Basmati" düyüsünə qoyulan rüsum Azərbaycan Prezidentinin göstərişi ilə ləğv edilib. Eyni zamanda Azərbaycanda istehsal olunan məhsulların Pakistanda satışının genişləndirilməsi üçün də addımlar atılacaq. Baş nazir vurğulayıb ki, Pakistan tərəfi tarifləri aşağı salmağa və qarşılıqlı ticarətin həcmini artırmağa tam hazırdır. Hərbi sahədə də əməkdaşlıq sürətlə inkişaf edir. Məhəmməd Şahbaz Şərif Pakistanın istehsalı olan "JF-17" qırıcı təyyarələrinin Azərbaycana ixracı ilə bağlı fəal iş aparıldığını qeyd edib. Bu, Azərbaycan-Pakistan strateji tərəfdaşlığının təkcə iqtisadi deyil, həm də hərbi sahədə dərinləşdiyini göstərir.




Azərbaycanın Pakistanla strateji əməkdaşlığı təkcə siyasi müstəvidə deyil, həm də geoiqtisadi və geosiyasi aspektlərdə yeni imkanlar açır. Pakistanın Hind Okeanı sahilində yerləşməsi və Kəngər (Fars, Ərəb, Bəsrə) körfəzinə çıxışı respublikamızın regionda yeni ticarət və nəqliyyat marşrutlarına inteqrasiya olunmasına şərait yaradır. Bu əməkdaşlıq sayəsində Bakı öz ixrac və idxal yollarını şaxələndirə, enerji və ticarət sektorunda daha geniş perspektivlər əldə edə bilər. Körfəzdən Cənubi Qafqaza uzanan yeni ticarət dəhlizləri isə iqtisadiyyatda strateji diversifikasiyaya və təhlükəsiz tədarük zəncirinin formalaşmasına təkan verəcək. Pakistanın Cənubi Qafqazda siyasi və iqtisadi fəallığının artması isə Azərbaycanın regional maraqları üçün yeni imkanlar yaradır. Bakı və İslamabadın birgə fəaliyyəti regionda sülh, sabitlik və təhlükəsizlik məsələlərində daha güclü mövqelərin formalaşmasına gətirib çıxara bilər. Bütün bu perspektivlərin fonunda Azərbaycan-Pakistan əməkdaşlığının təkcə ikitərəfli formatda deyil, Türkiyənin də daxil olduğu üçtərəfli mexanizmlər çərçivəsində inkişafı mühüm əhəmiyyət kəsb edir. Bakı, İslamabad və Ankara arasındakı yaxın əlaqələr gələcəkdə yeni bir regional güc mərkəzinin formalaşmasını şərtləndirə bilər. İqtisadi əməkdaşlıqla yanaşı, hərbi və müdafiə sənayesi sahəsində birgə layihələr, enerji sektorunda inteqrasiya və nəqliyyat dəhlizlərinin inkişafı bu üç ölkəni geosiyasi baxımdan daha da yaxınlaşdırır. Bu strateji baxışın reallaşması yolunda ən mühüm addımlardan biri isə apreldə İslamabadda keçirilməsi planlaşdırılan zirvə toplantısı olacaq. Bu görüş Azərbaycan və Pakistan arasında əməkdaşlığın genişmiqyaslı siyasi, hərbi və logistika sahələrində də dərinləşməsi üçün mühüm bir mərhələ olacaq. Zirvə iki ölkənin tərəfdaşlığını yeni səviyyəyə çıxarmaqla yanaşı, regional və qlobal güc balansında da onların rolunu gücləndirəcək.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**